## 1. Ümumi məlumat

**Coğrafi mövqeyi:** Laos Hindçin yarımadasında Cənub-Şərqi Asiyada yerləşir.
**Ərazisi:** ümumi: 236800 $km^2$quru: 230800 $km^2$su: 6000 $km^2$
**Quru sərhədi:** Myanmar – 235 km, Kamboca – 541 km, ÇXR – 423 km, Tayland – 1,754 km, Vyetnam – 2,130 km
**Müstəqillik günü:** 19 iyul 1949 (Fransadan)
**Milli bayram:** Respublika günü – 2 dekabr (1975)
**Əhali:** 6,368 milyon (2010)
**Etnik qruplar:** Lao – 55%, Kmou – 11%, Hmonq – 8% və digər (100-dən çoc etnik qrup) – 26%
**Dinlər:** Buddistlər – 65%, xristianlıq -1,3%, digər – 33,7%
**Dillər:** Laos dili (rəsmi), Fransız və İngilis.
**Paytaxt:** Vyentyan
**İnzibati bölgülər:** 16 vilayət, 1 bələdiyyə, 1 xüsusi zona - Attapu, Bokeo, Bolikxamsay, Çampasak, Hoafan, Xammoan, Lunqnamata, Lunqfrabanq, Udomsay, Fonqsali, Salavan, Savannahet, Vyanqçan*, Vianqçan, Sayqnabuli, Saysombun, Sekonq, Sianqxoang
**Dövlət quruluşu:** Respublika
**Konstitusiya:** 14 avqust 1991-ci ildə qəbul olunmuş, 2003-cü ildə isə dəyişikliklər edilmişdir.
**Dövlət başçısı:** Prezident Lt. Gen. Çoummali Saignason ( 8 iyun 2006-cı ildən) və Vitse-Prezident Boun-Gnanq Volaçit ( 8 iyun 2006-cı ildən)
**Hökumət başçısı:** Baş nazir Bouasone Bouphavanh ( 8 iyun 2006-cı ildən bəri)
Kabinet: Nazirlər kabineti (Prezident tərəfindən təyin olunur, Milli Məclis tərəfindən təsdiq edilir)
**Seçkilər:** 5 ildən bir ümumxalq səs verməsi yolu ilə keçirilir. Növbəti seçkilər 2011-ci ildə keçiriləcəkdir.
**Qanunverici orqan:** Bir palatalı Milli Məclis. (Milli Məclisin 115 üzvü 5 il müddətinə xalq tərəfindən seçilir.
**Məhkəmə orqanı:** Ali Xalq Məhkəməsi. Məhkəmə sədri Milli Məclisin Daimi Komissiyasının təqdimatı əsasında Milli Məclis tərəfindən seçilir. Müavin və digər üzvlər isə Milli Məclisin Daimi Komissiyası tərəfindən təyin olunur.

**Hökumət**

| | |
|---|---|
| Prezident<br>[President] | Çoummali Saiqnason<br>[Choummali Saiqnason] |
| Vitse-Prezident<br>[Vice President] | Boun-Gnanq Volaçit<br>[Boun-Gnang Volachit.] |
| Baş Nazir<br>[Prime Minister] | Tonqsinq Tammavong<br>[Thongsing Thammavong] |

| | |
|---|---|
| Baş Nazirin Müavini<br>[Deputy Prime Minister] | Asanq LAOLİ, *Gen. May.*<br>[Asang LAOLY, *Maj. Gen.*] |
| Baş Nazirin Müavini<br>[Deputy Prime Minister] | Tonqlun SİSULİT<br>[Thongloun SISOULITH] |
| Baş Nazirin Müavini<br>[Deputy Prime Minister]<br><br>Baş Nazirin Müavini<br>(Deputy Prime Minister) | Somsavat LENQSAVAD<br>[Somsavat LENGSAVAD]<br><br>Duangçay Fiçit<br>(Douangchai Phichit) |
| Kənd Təsərrüfat və Meşəçilik üzrə Nazir<br>[Min. of Agriculture & Forestry] | Sitaheng Latsaphone<br>[Sitaheng Latsaphone] |
| İnformasiya və Mədəniyyət Naziri<br>[Min. of Information & Culture] | Munkeo Olabun<br>[Mounkeo Olaboun] |
| Rabitə, Nəqliyyat, Poçt və Tikinti üzrə Nazir<br>[Min. of Communications, Transport, Posts, & Construction] | Sommath Folsena<br><br>[Sommath Pholsena] |
| Energetika və Mədən Naziri<br>[Min. of Energy and Mining] | Sulivonq Daravonq<br>[SOULİVONG Daravong] |
| Milli Müdafiə Naziri<br>[Min. of National Defence] | Duanqçay FİÇİT, *Gen. May.*<br>[Douangchay PHICHIT, *Maj.Gen.*] |
| Təhsil Naziri<br>[Min. of Education ] | Somkat Manqnormek<br>[Somkat Manqnormek] |
| Maliyyə Naziri<br>[Min. of Finance] | Somdi Duanqdi<br>[SOMDY Douangdy] |
| Xarici İşlər Naziri<br>[Min. of Foreign Affairs] | Tonqlun Sisoulit<br>[Thongloun Sisoulit] |
| Sənaye və Ticarət Naziri<br>[Min. of Industry&Commerce] | Nam Vignaket<br>[NAM Vignaket] |
| Səhiyyə Naziri<br>[Min. of Public Health] | Ponemek DALALOY<br>[Ponemek DALALOY] |
| Sənaye Naziri<br>[Min. of İndustry] | Nam Viyaket<br>[Nam Viyaketh] |
| Ədliyyə Naziri<br>[Min. of Justice] | Çaleyan Yapaoher<br>[Chaleuan Yapaoher] |
| Əmək və İctimai Rifah Naziri<br>[Min. of Labour & Social Welfare] | Oneçan Tammovonq<br>[ONECHANH Thammavong] |
| İctimai İşlər və Nəqliyyat Naziri<br>[Min. of Public Works and Transportation] | Somat Folsena<br>[Sommath Pholsena] |
| Baş nazirin dəftərxanasında Nazir | Bounpenq Mounfosay |

| | |
|---|---|
| [Min. to the Prime Minister’s office] | [Bounpheng Mounphosay] |
| Baş nazirin dəftərxanasında Nazir<br>[Min. to the Prime Minister’s office] | Bouasi Lovansay<br>[Bouasy Lovansay] |
| Baş nazirin dəftərxanasında Nazir<br>[Min. to the Prime Minister’s office] | Xam-Oan Bopfa<br>[Kham-Ouane Bouppha] |
| Baş nazirin dəftərxanasında Nazir<br>[Min. to the Prime Minister’s office] | Onneu Fomma,an<br>[Onneua Phommachanh] |
| Baş nazirin dəftərxanasında Nazir<br>[Min. to the Prime Minister’s office] | Saisenqli Tenqbliça<br>[Saisengli Tengbliachu] |
| Dövlət planlaşdırma və İnvestisiya komitəsinin sədri<br>(Cmn.Planning&İnvestment Ctte.) | Sulivonq Dalavonq<br>[Soulivong Dalavong] |
| Milli Bankın Sədri<br>[Governor, National Bank] | Foufet Kamfounvonq<br>[Phouohet Khamphounvong] |
| Elm,Texnaloqiya və ətraf mühit Naziri<br>[Min. Science, Technology and Environment] | Bountiem Fitsamay<br>[BOUNTİEM Phitsamay] |
| Milli Mekong Komitəsinin sədri, Nazir<br>[Min. and Chmn. of National Mekong Ctte.] | Xamluad Sitlakon<br>[Khamlouad Sitlakone] |
| Milli Turizm Agentliyinin Sədri, Nazir<br>[Min. and Chmn. of National Tourism Agency] | Somfonq Monqonvilay<br>[Somphong Monghonvilay] |
| Cabinetin rəhbəri, Nazir<br>[Min. and Head of Cabinet] | Souban Srittirat<br>[Soubanh Sritthirath] |
| Hökumət Katibliyinin Sədri, Nazir<br>[Min. and Head of Govt. Secretariats] | Çeuanq Sombunkan<br>[Cheuang Sombounkhanh] |
| Dövlət Nəzarət Komissiyasının Sədri<br>[Chmn., State Control Comission] | Asanq Laoli<br>[Asang Laoli] |

## 2. İqtisadiyyat

Laos hökuməti 1986-cı ildə idarəetmənin desentralizasiyası və özəl müəssisələrin inkişafının təşviqinə başlamışdır. Bu sahədə yüksək nəticələr əldə olunmuşdur. Belə ki, 1988-2001-ci illərdə iqtisadi artım orta hesabla 7% təşkil edirdi (1997-ci ildə baş vermiş Asiya maliyyə böhranı səbəbindən qısamüddətli azalma müstəsna olmaqla). Bu artımın yüksək səviyyəsinə baxmayaraq, Laos sadə infrastrukturlu, heç bir dəmir yolu və ibtidai yol sistemi olmayan, məhdud xarici və daxili telekommunikasiyalı ölkə kimi qalmaqdadır. Elektrik enerjisi ilə yalnız bir neçə şəhər əraziləri təmin olunur. Kənd təsərrüfatının payı ÜDM-nın yarısını təşkil edir və ölkə məşğulluğunun 80%-nı təmin

edir. İqtisadiyyat gəlirini Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq mənbələrinin yardımından, həmçinin ərzaq və mədən istismarı sahələrinə qoyulan sərmayələrdən əldə olunmasını davam etməkdədir. 2004-cü ildə adambaşına düşən illik gəlir orta hesabla 382 ABŞ dolları olmuşdur. 2008-ci ildə adambaşına düşən illik gəlir orta hesabla 2,1 min ABŞ dolları olmuşdur.

**Ümum daxili məhsul:** 15.42 milyard ABŞ dolları (2010)
**Ümumi daxili məhsul – real artım nisbəti:** 7% (2010)
**Ümumi daxili məhsul – adambaşına:** 2,4 min. ABŞ dolları (2010)
**Ümumi daxili məhsul – sektorlar üzrə:** *Kənd təsərrüfatı:* 29.8%, *Sənaye:* 31.7 %, *Xidmət:* 38.5 % (2010)
**Büdcə:** *Gəlirlər:* 472,3 milyon ABŞ dolları (2007), *Xərclər:* 646,1 milyon ABŞ dolları (2007)
**Kənd təsərrüfatı malları:** şirin kartof, tərəvəz, taxıl, qəhvə, şəkər qamışı, tütün, pambıq, çay, yerfındığı, düyü, heyvandarlıq, ev quşu
**Sənaye:** gips və qalay mədənlərinin istismarı, ağac emalı, su elektrik enerjisi, kənd təsərrüfatı emalı, tikinti, tekstil, turizm
**İxrac:** 970 mln (2007), 1,2 mlrd dollar (2008)
**İxrac malları:** geyim, ağac məhsulları, qəhvə, elektrik enerjisi, qalay,qızıl
**İxrac tərəfdaşları:** Tayland – 35,5%, Vyetnam – 5.8%, Çin- 8,5% (2008)
**İdxal:** 1,376 mlrd (2007)**,** 1,4 mlrd dollar (2008)
**İdxal Malları:** maşın hissələri və avadanlıq, avtomobillər, yanacaq, istehlak malları
**İdxal tərəfdaşları:** Tayland – 68.5%, Çin – 10.5%, Vyetnam – 5.8%.(2008)
**Maliyyə ili:** 1 oktyabr – 30 sentyabr
**İşsizlik:** 2.5% (2009)
**İnflyasiya:** 6.2% (2010)
**Milli valyuta:** Kips (LAK), 1 ABŞ dolları = 8.320 (2010)

## 3. Xarici siyasət

Vyetnam ilə əməkdaşlıq Laosun xarici siyasətində mühüm yer tutur. Belə ki, iki ölkə arasında 1975-ci ildə imzalanmış Dostluq və Əməkdaşlıq haqqında Razılaşma bu münasibətlərin yeni mərhələyə qədəm qoymasına təkan vermişdir. 1975-ci il razılaşması iki ölkə sərhədlərini müəyyənləşdirmiş, Vyetnam tərəfindən Laosa iqtisadi yardım edilməsini və təhlükəsizliklə bağlı hərbi razılaşmanı özündə əks etdirirdi. İki ölkə arasında daim yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilir. İqtisadiyyat, siyasət, ticarət və texnika sahəsində əməkdaşlıq bu əlaqələri daha da möhkəmləndirir.
Laosun həmçinin, Çin Xalq Respublikası ilə də möhkəm siyasi və iqtisadi əlaqələri mövcuddur.
Laosun xarici siyasətdə digər mühüm tərəfdaşı Taylanddır. Coğrafi yerləşmə, dil və mədəniyyət yaxınlığı, iqtisadi və investisiya sahəsində əməkdaşlıq iki ölkə

münasibətlərində mühüm əhəmiyyət kəsb edir. Qeyd olunanlarla yanaşı, iki ölkə arasında münasibətlərdə tarixən gərginlik yaşanmışdır. Bu gərginlik əsasən hər iki tərəfdən ərazi iddiaları ilə başlamış və bunun nəticəsində qarşıdurma baş vermişdir. Siyasi sistemlərin müxtəlifliyi, partizanların fəaliyyəti, insan və narkotik maddələrin qeyri-qanuni alveri ölkələr arasında münasibətlərdə gərginlik yaradan amillərdəndir. İki ölkə arasında müəyyənləşdirilməmiş sərhəd əraziləri də mövcuddur.
Keçən əsrin 90-cı illərində Laos siyasi və iqtisadi durumundan asılı olmayaraq, bir sıra ölkələrlə münasibətləri inkişaf etdirməyə başlamışdır. 1997-ci ilin iyulunda Laos ASEAN-a üzv qəbul olunmuş və 2004-2005-ci illərdə təşkilata rəhbərlik etmişdir. Laos həmçinin Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün də müraciət etmişdir.
Ümumdünya və Asiya İnkişaf Banklarının Laosda nümayəndəlikləri fəaliyyət göstərir və geniş iqtisadi proqramlar həyata keçirirlər.

## 4. İkitərəfli münasibətlər

Laos Xalq Demokratik Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini **2 yanvar 1992-ci ildə** tanımışdır. İki dövlət arasında diplomatik əlaqələr **22 may 1995-ci ildə** yaradılmışdır. Münasibətlər əsasən yüksək səviyyəli yazışmalarla davam etdirilir.
**Azərbaycan - Laos parlamentlərarası əlaqələr üzrə işçi qrupu:** Mövcud deyil.
**Laosda Azərbaycan diasporası fəaliyyət göstərmir.**

## 5.Müqavilə-hüquq bazası

**İmzalanmış sənədlər:** - mövcud deyil.